# Füzuli: cari ilin yekunları, yeni ilin hədəfləri

***❐ Füzuli Rayon İcra Hakimiyyətindən təqdim olunan arayışdakı rəqəmlərlə maraqla tanış oldum. Özü də təkcə ona görə yox ki, bu, geniş, ardıcıl və sistemli şəkildə aparılan təşkilat-idarəetmə tədbirlərinin, iş üslub və metodlarının aydın mənzərəsini əks etdirirdi. Bir də ona görə ki, göstərilən ünvanların coğrafiyası çox geniş idi – demək olar ki, bütün respublikanı əhatə edirdi.***

***Füzulidə son illər ərzində görülən işlərlə bağlı sizi təbrik etmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, Prezident kimi bundan sonra da Füzuli rayonunun inkişafı ilə bağlı səylərimi göstərəcəm. Daim bu məsələ diqqət mərkəzində olacaqdır. Biz hələ çox-çox görüşəcəyik. Çünki Füzulidə gələcəkdə böyük işlər görüləcək, böyük açılışlar olacaqdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Söhbət Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevin müəyyən olunmuş qrafik əsasında ərazidəki yaşayış məntəqələrində və məcburi köçkünlərin daha çox məskunlaşdıqları şəhər və rayonlarda xidmət təşkilatlarının, hüquq-mühafizə orqanlarının, əlaqədar idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə keçirdiyi səyyar qəbullardan gedirdi. Başa çatmaqda olan 2018-ci ildə icra başçısı 46 səyyar-qəbul keçirmiş, 2 mindən çox vətəndaşın müraciəti yerlərdə dinlənilmişdir. Əlavə edək ki, belə açıq görüşlərin keçirilməsi təcrübəsi daim təkmilləşdirilir, əhali ilə birbaşa ünsiyyət forma və məzmun baxımından zənginləşdirilir. Nəticədə, vətəndaşları narahat edən problemlər onların iştirakı ilə yerindəcə həll edilir, qarşıya çıxan nöqsanların aradan qaldırılmasında ictimai nəzarətin rolu gücləndirilir.

İndi ölkədə vətəndaşların qəbulu, onların məktub, ərizə və şikayətləri ilə aparılan işin daha da təkmilləşdirilməsi icra hakimiyyəti orqanları qarşısında duran vacib



və təxirəsalınmaz vəzifələrdən biridir. Ölkə Prezidenti İlham Əliyev bu sahədə ardıcıl və sistemli iş qurmağı, adamlara qayğı və həssaslıqla yanaşmağı, bu vacib məsələləni daim diqqət mərkəzində saxlamağı rəhbər işçilər qarşısında mühüm tələb kimi irəli sürmüşdür: "Mən həmişə demişəm, biz xalq üçün yaşayırıq, xalq üçün çalışırıq, xalq qarşısında məsuliyyət daşıyırıq".

Aparılan müşahidələr və əldə etdiyimiz faktların təhlili bir daha sübut edir: o yerdə ki, adamlarla aparılan iş, onların ərizə və məktublarına baxılması müasir tələblər səviyyəsində qurulub – orada iqtisadi, sosial və mədəni sahədə əldə edilmiş uğurlar daha çoxdur. Burada, ilk növbədə, insan amili, onun həyat tərzi, güngüzəranı, arzu və düşüncələri ön plana keçir.

Son illər Füzuli rayonunda əldə edilmiş böyük uğurların, aparılan genişmiqyaslı tikinti-quruculuq və abadlıq işlərinin davamlı prosesə çevrilməsini təmin edən başlıca amillərdən biri, heç şübhəsiz, yuxarıda dediklərimizdir. Ölkə başçısının: "Mən hər bir Azərbaycan vətəndaşının prezidentiyəm", Xalqla dövlət məmuru hər zaman bir yerdə olmalıdır" sözləri Füzuli Rayon İcra Hakimiyyəti Aparatı, onun yerli strukturları, digər idarə, müəssisə və təşkilatlar üçün, sözün əsl mənasında, həlledici meyar olmuşdur. Təsadüfi deyildir ki, son illər burada həyatın bütün sahələrində inkişaf və



yüksəliş dinamik xətlə getmişdir. Gəlin, konkret fakt, rəqəm və göstəricilərə nəzər salaq.

Cari ilin ötən ayları ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala 7, 9 milyon manat investisiya qoyulmuşdur ki, bunun da 7,5 milyon manatı tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. Pərakəndə əmtəə dövriyyəsi və əhaliyə göstərilən pullu xidmətlərin həcmi 3,6 milyon manat və ya keçən ilin müvafiq dövründəkindən 13,2 faiz çox olmuşdur. Ötən ilin müvafiq dövrünə nisbətən pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 35,7 milyon manat və ya 13,2 faiz artmışdır. İlin əvvəlindən 362 iş yeri açılmışdır ki, onlardan 65-i yeni yaradılmış, 96-ı mövcud müəssisələrdə, 201-i isə fiziki şəxslərdən ibarət olmuşdur. Orta aylıq əmək haqqı rayon üzrə 386,2 manata çatmışdır.

"Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı (2014-2018-ci il)" artıq başa çatmaq üzrədir. Dövlət proqramında Füzuli rayonu üzrə nəzərdə tutulan bütün işlər uğurla icra edilmişdir.

2018-ci ildə kənd təsərrüfatı məhsullarının istehsalında xüsusilə yüksək nəticələr əldə edilmişdir. Son illər rayonda strateji məhsul olan taxılçılığın intensiv inkişafına xüsusi diqqət yetirilir. Artıq yeddinci ildir ki, Füzuli taxıl istehsalına görə respublikanın 100 min tondan artıq taxıl istehsal edən rayonları sırasında öz yerini qoruyub saxlayır. Ölkə Prezidenti əhalinin mühüm strateji məhsul olan taxıla tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək məqsədilə bölgələrdə iri taxılçılıq təsərrüfatının yaradılmasını qarşıya məqsəd qoymuşdur. Strateji Yol Xəritəsinə uyğun olaraq, rayonda hər biri 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılmış, 2,7 min hektar torpaq sahəsi müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsal edən Aqroparkın istifadəsinə verilmişdir. 500 hektar sahədə isə toxumçuluq təsərrüfatı təşkil olunmuşdur.

Taxıl istehsalçıları 2017–2018-ci təsərrüfat ilində 36,3 min hektar ərazidə əkin aparmışlar ki, bunun da 27,3 min hektarı buğda, 3,9 min hektarı isə arpadır. Yetişmiş taxıl çox qısa müddətdə, itkisiz və mütəşəkkil qaydada biçilmiş, sahələrdən 108 min 217 ton məhsul əldə edilmişdir. Bunun da 82 min 938 tonu buğda, 25 min 279 tonu isə arpadır. Buğda əkilmiş sahələrdə orta məhsuldarlıq 30,2 sentner, arpada isə 28,2 sentner olmuşdur.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı, digər sahələrin də inkişafına xüsusi diqqət yetirilir. Ölkə başçısının respublikada ənənəvi təsərrüfat sahələri olan pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, əhalinin bu sahələrin hesabına məşğulluğunun təmin olunması barədə tapşırıq və göstərişinə uyğun olaraq, bu il Füzuli rayonunda 2,1 min hektar ərazidə pambıq əkilmişdir. Sahələrə lazımi aqrotexniki qulluq göstərilmiş, mineral gübrələr verilmiş, əkinlər vaxtlı-vaxtında suvarma suyu ilə təmin edilmişdir. Becərməyə minlərlə insan cəlb edilmiş, onların məşğulluğu təmin olunmuşdur.

Bu günə kimi sahələrdən 4 min tona yaxın pambıq yığılaraq qəbul məntəqələrinə təhvil verilmişdir. Baramaçılığın uzun fasilədən sonra bərpa edilməsi əhali tərəfindən böyük maraqla qarşılanmışdır. 2018-ci ildə kümçülər qısa müddətdə 38 tona yaxın barama istehsal etmiş, 340 min manatadək vəsait əldə etmişlər. Füzuli rayonu barama istehsalında əldə etdiyi nəticəyə görə respublikada ilk üçlükdə qərarlaşmışdır. Baramçılar gələn il 50 tondan artıq yaş barama istehsal etməyi planlaşdırırlar.

Ümumiyyətlə, sona yaxınlaşan 2018-ci ildə rayonda 1209 ton tərəvəz, 2 min 985 ton bostan məhsulu, 1832 ton kartof, 1141,1 ton meyvə toplanmış, 915 ton üzüm, 2 min 45 ton ət, 20 min 893 ton süd, 244 ton yun, 13 milyon 260 min ədəd yumurta istehsal olunmuşdur ki, bu da əvvəlki illərin analoji dövrləri ilə müqayisədə xeyli çoxdur.

Horadiz… Yaşıllıqlar, fəvvarələr, bulaqlar şəhəri. Müasir, yaraşıqlı binalar, geniş küçələr, bağ və xiyabanlar onun hüsnünü bəzəyir. Özü də bu binaların, çəkilən yolların, səkilərin, salınan yaşıllıqların, park və xiyabanların, demək olar ki, hamısı son 6-7 ilin işidir. Yeri gəlmişkən, onlardan bəzilərini burada yada salmaq istəyirik: Heydər Əliyev parkı, Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının, Gənclər Mərkəzinin, Füzuli Rayon İcra Hakimiyyəti Aparatının, təhsil, polis və maliyyə şöbələrinin inzibati binaları, yeni avtovağzal, 31 Mart soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidə kompleksləri... Heydər Əliyev prospekti tamamilə yenidən qurulmuş və genişləndirilmişdir. Təkcə son 2 ildə 200 minə yaxın ağac və gül kolu əkilmişdir.

Horadiz şəhərində işğal nəticəsində yandırılmış və dağıdılmış evlərdən 227-si, 3 çoxmərtəbəli kommunal binanın, eləcə də Alıxanlı kəndində 50, Əhmədalılar kəndində 25 evin bərpası başa çatdırılmışdır. Biz tam olmayan bu siyahıya son illər tikilib istifadəyə verilmiş onlarla məktəb, xəstəxana və uşaq bağçalarını, o cümlədən yüz kilometrlərlə təzə asfalt yolları, körpüləri və s. də əlavə edə bilərik.




Ölkə Prezidenti İlham Əliyevin qarşıya qoyduğu mühüm vəzifələr, o cümlədən özəl bölmənin, azad sahibkarlığın daha sürətli inkişafı ilə əlaqədar verdiyi tapşırıq və tövsiyələr Füzuli rayonunda da böyük diqqət, səy və ardıcıllıqla həyata keçirilir. Azad sahibkarlığın inkişafına göstərilən həssas münasibət, bu sahədə yaradılmış münbit və əlverişli şərait, əsassız yoxlamaların, süni manеələrin aradan qaldırılması istiqamətində işlənib hazırlanmış ciddi və ardıcıl tədbirlər xüsusilə diqqəti cəlb edir. Heç təsadüfi deyildir ki, son illər müxtəlif təyinatlı özəl müəssisələrin sayı 5 dəfədən çox artmışdır. Məsələn, Kərimbəyli kəndində 3 hektar sahədə ailəvi istirahət mərkəzi, 5 min ton kənd təsərrüfatı məhsulları saxlayan soyuducu anbar, ildə 3 min ton quş əti istehsal edən "Qarabağ broyler" MMC və s.

Tikinti-abadlıq və quruculuq işləri bu gün də eyni sürət və keyfiyyətlə davam etməkdədir. Füzulililər xüsusilə belə bir həqiqəti böyük minnətdarlıq hissi ilə qeyd edirlər ki, Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində rayonda 6 böyük layihə həyata keçirilmişdir. Horadiz şəhərində Əmlak Məsələləri Dövlət Komitəsinin rayon şöbəsi üçün inzibati bina inşa olunmuş, Dövlət Bayrağı Meydanının ərazisində Bayraq Muzeyinin, Bala Bəhmənli kəndində Mərkəzi Rayon Xəstəxanasının, Arayatlı kəndində 100 yerlik körpələr evi-uşaq bağçasının, Qayıdış qəsəbəsi ərazisində müxtəlif növ kənd təsərrüfatı məhsullarının





satışı üçün bazarın tikintisi başa çatmaq üzrədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev son 7 il ərzində 4 dəfə Füzuli rayonuna tarixi səfər etmiş, müxtəlif təyinatlı binaların açılışında və təməlqoyma mərasimlərində iştirak etmiş, ağsaqqallarla, ziyalılarla, gənclərlə unudulmaz görüşlər keçirmiş, rayon ictimaiyyəti nümayəndələri qarşısında çıxış etmişdir. Həmin səfər və görüşlər bu gün də füzulililərin yaddaşında əziz bir xatirə kimi yaşamaqdadır. Onu da əlavə edək ki, ölkə başçısı görülüb başa çatdırılmış işləri yüksək qiymətləndirməklə yanaşı, qarşıda duran hədəflərdən də danışmış, öz qiymətli məsləhət və tövsiyələrini vermişdir. Təsadüfi deyildir ki, bütün bunlar rayonda işlərin gedişinə əsaslı təkan, insanlara əlavə güc və stimul vermişdir.

Bəli, bu gün cəbhə xəttində, düşmənlə üz-üzə dayanmış Füzulidə bax belə bir sağlam mənəvi-psixoloji mühit, işgüzar və yaradıcı ab-hava mövcuddur. Onlar inkişaf və yüksəkliklə, xoşbəxtlik və əmin-amanlıqla dolu daha bir uğurlu ili yola salmağa, 2019-cu ili böyük ümid və arzularla qarşılamağa hazırlaşırlar. Ən böyük istəkləri isə, əlbəttə, hələ də işğal altında olan torpaqlarımızın azad olunması, hamılıqla müqəddəs ata-baba yurdlarımıza qayıtmaqdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük qətiyyət və uzaqgörənliklə apardığı daxili və xarici siyasət xətti, müdrik və cəsarətli diplomatik səyləri füzulililərin bu ümid və arzularını daha da artırmışdır.

Bəli, 2019-cu il yurdumuza sonsuz inam və arzularla qədəm qoyur…

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***